# İşıqlı insan

*Çar Rusiyası xalqımızı həmişə cəhalətdə saxlamağa çalışıb. Buna görə də azərbaycanlıları nə əsgər aparırdılar ki, hərb sənətini öyrənsinlər, nə də balalarımızın təhsil alması üçün məktəblər açırdılar. Belə bir zamanda tanınmış ziyalılar xalqı maarifləndirmək məqsədilə müxtəlif dərsliklər yazır, məktəblər, qəzet və jurnallar açır, teatr tamaşaları hazırlayırdılar. Bu yolda həyatını xalqının mənəvi yüksəlişinə, maariflənməsinə həsr etmiş insanlardan biri görkəmli pedaqoq, ədəbiyyatşünas, yazıçı-publisist, tərcüməçi, içtimai xadim Firidun bəy Köçərli olub.*

Firidun bəy Köçərli (Köçərlinski) 1863-cü il yanvarın 26-da Şuşada dünyaya gəlib. O, Gürcüstanın Qori şəhərində yerləşən Zaqafqaziya Müəllimlər Seminariyasını bitirib və uzun illər bu məktəbdə dərs deyib. Bir müddət F.Köçərli Qori seminariyasının Azərbaycan şöbəsinə rəhbərlik edib. Sonralar onun təşəbbüsü ilə Qori seminariyasının əsasında Qazax şəhərində müəllimlər seminariyası açılıb (1906-il) və Firidun bəy Köçərli ömrünün sonunadək həmin təhsil ocağının müdiri işləyib. Ötən əsrdə Azərbaycanda yetişən tanınmış şəxsiyyətlərin bir çoxu onun tələbəsi olub.

Firidun bəy Köçərli Azərbaycan Xalq Cümhuriyyəti Milli Şurasının üzvü olub.

Firidun bəy Köçərli 1920-ci ildə, əlli səkkiz yaşında ermənilər tərəfindən güllələnərək dünyasını dəyişib.

Onun çoxlu əsərləri var. Azərbaycan uşaqları üçün ilk dərsliklərin hazırlanmasında və zənginləşdirilməsində Firidun bəyin böyük əməyi olub. "Balalara hədiyyə" adlı kitabı bu gün də uşaqlar tərəfindən maraqla oxunur. Onu da qeyd edək ki, həmin əsər bu yaxınlarda yenidən nəşr edilib.





Tumurcuq

Təsisçi: ZAMAN - AZƏR MMC
YANVAR 2014 SAYI:1/171

Baş direktor
Süleyman ÜNAL
s.unal@zaman.az

Nəşrlər üzrə koordinator
Ürfan Məmmədli
u.memmedli@zaman.az

Redaktor
Səməd Məlikzadə
s. melikzade@zaman.az

Məsləhətçi
Əli Məcid
a.mecid @zaman.az

MARKETİNQ MÜDİRİ
Mehmet Şimşek

ŞÖBƏ MÜDİRİ
Loğman Məmmədov

REKLAM MÜDİRİ
Harun Aydoğdu

DİZAYNER
Vüsal Nəbiyev

TƏMSİLÇİLİKLƏR
Naxçıvan: (136) 52430
Gəncə: (22) 560194
Ağdaş: (193) 55131
Quba: (169) 53810
Lənkəran: (171) 52057
Mingəçevir: (147) 45896
Şirvan: (197) 51292
Zaqatala: (174) 54055

Ünvanımız: Bakı, Tbilisi prospekti, 1058-ci məhəllə, ev 34
Tel/Fax: 530 85 81 (82,83),
ZAMAN - AZƏR MMC firmasının mətbəəsində çap edilib.
● Abunə ilə əlaqədar şikayətlərinizi redaksiyaya bildirməyinizi xahiş edirik.
● Əlyazmalar geri qaytarılmır.
● Abunə indeksi: 022382. ● Tirajı: 9500.


Yanvar ayı 2014.